# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİNDƏ YAŞAYAN BALIQ NÖVLƏRİ

**Mehman Axundov, Firuddin Əliyev, Arzu Babayeva, Rəşad Allahverdiyev, Nərgiz Quliyeva**

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidməti, azfiri@azeurotel.com*

Qarabağ və Şərqi Zəngəzurun ixtiofaunasının öyrənilməsi əsasən keçən əsrin ortalarında aparılmışdır (Берг, 1949; Абдурахманов, 1955, 1958, 1962; Державин, 1949). Regionun işğaldan əvvəlki sovet dövründə burada yaşayan balıq növləri barədə son nadir elmi-tədqiqat məlumatları isə ötən əsrin 70-ci illərinə aiddir (Аббасов, 1972; Мамедова, Насиров, 1975).

Ümumilikdə 4 fəsiləyə: çəkikimilər, qızılbalıqkimilər, ilişgənlər və xullara aid olan 23 balıq növü qeydə alınmışdır. Növlərin təqribən 75%-i çəkikimilərə aiddir, onlar yarımkeçici su formaları olub, daha böyük müxtəlifliklə xarakterizə olunurlar (23-dən 17 forma). Çəkikimilərdən sonra qızılbalıqkimilər (çay qızılxallısı, Anqor çılpaqcası, Kür çılpaqcası), ilişgənlər (Qafqaz ilişgəni, qızılı ilişgən) və xullara (Qafqaz çay xulu) rast gəlinir.

Qarabağın şirin sularında 20 növ balıq yayılmışdır, burada yalnız çay qızılxallısı, Kür şəmayısı və Cənubi Qafqaz yastıqarını qeydə alınmır. Köndələnçayın Xocavənd və Füzuli rayonları ərazisindən axan hissələrində cəmi 14 növ balıq (Qafqaz enlibaşı, Kür altağızı, Kür qumlaqçısı, Araz xramulyası, zərdəpər, Kür şirbiti, Zaqafqaziya gümüşcəsi, Kür gümüşcəsi, şərq qıjovçusu, adi çəki, gümüşü dabanbalığı, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni, Qafqaz çay xulu) yaşayır. Qarqarçayın Ağdam rayonu ərazisindən axan hissəsində cəmi 8 balıq növünə (Qafqaz enlibaşı, Kür xramulyası, Kür şirbiti, Kür gümüşcəsi, şərq qıjovçusu, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni, Qafqaz çay xulu) rast gəlmək olar. Tərtərçayın (Suqovuşan su anbarı da daxil olmaqla) Tərtər rayonu ərazisindən axan hissəsində yaşayan balıq növlərinin sayı 14-dür (Qafqaz enlibaşı, Kür xramulyası, Kür şirbiti, mursa, Zaqafqaziya gümüşcəsi, Kür gümüşcəsi, şərq qıjovçusu, adi kərkə, gümüşü dabanbalığı, anqor çılpaqcası, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni, qızılı ilişgən, Qafqaz çay xulu).

Şərqi Zəngəzurun su hövzələrində Kür xramulyasından başqa, ümumilikdə 22 növ yayılmışdır. Bəsitçay, Oxçuçay və Həkəriçayın Zəngilan rayonu ərazisindən axan hissələrində cəmi 22 növ balıq (çay qızılxallısı, Qafqaz enlibaşı, Kür altağızı, Kür qumlaqçısı, Araz xramulyası, zərdəpər, Kür şirbiti, mursa, Kür şəmayısı, Zaqafqaziya gümüşcəsi, Kür gümüşcəsi, qaraqaş, şərq qıjovçusu, Zaqafqaziya yastıqarını, adi kərkə, adi çəki, gümüşü dabanbalığı, anqor çılpaqcası, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni, qızılı ilişgən, Qafqaz çay xulu) yaşayır. Həkəriçayın Laçın və Qubadlı rayonları ərazisindən axan hissəsində cəmi 10 balıq növünə (çay qızılxallısı, zərdəpər, Kür şirbiti, Zaqafqaziya gümüşcəsi, Kür gümüşcəsi, şərq qıjovçusu, anqor çılpaqcası, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni, Qafqaz çay xulu) rast gəlmək olar. Tərtərçayın Kəlbəcər rayonu ərazisindən axan hissəsində və Sərsəng su anbarında cəmi 6 balıq növünə (çay qızılxallısı, Kür şirbiti, Kür gümüşcəsi, şərq qıjovçusu, Kür çılpaqcası, Zaqafqaziya ilişgəni) təsadüf edilir.

Ağdam rayonunun Şahbulaq və Xanbulaq sularında Kür xulu yayılmışdır, kəhrizlərdə isə demək olar ki, yeraltı şəraitdə Qafqaz enlibaşı, Kür şirbiti və qıjovçu qeydə alınır. Qarqarçayın və onun qollarının (Xocalıçay və s.) ixtiofaunası Araz çayının qolu Köndələnçayla oxşardır. Xankəndi və Ağdam rayonları daxilində Qarqarçay hövzəsində Kür gümüşcəsi, Qafqaz enlibaşı, xramulya, qıjovçu, Kür şirbiti, Anqor çılpaqçası və Cənubi Qafqaz ilişgəni yayılmışdır.

Növ tərkibinə görə Araz çayının ixtiofaunası Kür çayının ixtiofaunasından az fərqlənir. Zəngilan, Cəbrayıl və Füzuli rayonları ərazisində, Araz çayı və onun qollarında 14 növ balıq məskunlaşır: Qafqaz enlibaşı, Kür altağızı, Anqor çılpaqcası, Araz xramulyası, Kür şirbiti, zərdəpər, mursa, adi qaraqaş, Kür gümüşcəsi, Cənubi Qafqaz ilişgəni, Kür çılpaqcası, sazan, Kür qumlaqçısı, yas-

tıqarın. Anqor çılpaqcası və Araz xramulyası istisna olmaqla, digər növlər Kür çayının orta axınları üçün xarakterikdir. Qızılxallı və Kür xulu, həmçinin Cənubi Qafqaz gümüşcəsinə bu çaylarda rast gəlinmir. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş çay qızılxallısı Zəngilan, Laçın və Qubadlı rayonlarında Bəsitçay, Oxçuçay və Həkəriçayın, həmçinin Kəlbəcər rayonunda Tərtərçayın yuxarı axınlarında və Sərsəng su anbarında yayılmışdır. Arazın sol sahil qollarının aşağı hissələrində balıqlar arasında xramulya üstünlük təşkil edir, gümüşcə və şirbit isə çoxsaylıdır.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş zərdəpər Zəngilan, Laçın və Qubadlı rayonlarında Bəsitçay, Oxçuçay və Həkəriçayın, həmçinin Xocalı və Füzuli rayonlarında Köndələnçayın yuxarı axınlarında yayılmışdır.